**UOT 82**

# RUHİ BAĞDADİ DİVANINDA REAL GÖZƏLİN TƏRƏNNÜMÜ (FƏZLİ, VAQİF VƏ XƏSTƏ QASIMLA MÜQAYİSƏLİ TƏHLİL)

**Azər OSMANLI**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 24 aprel 2024; çapa qəbul edilmişdir: 19 may 2024; online-da çap edilmişdir: 24 may 2024.

Received: 24th of April, 2024; accepted: 19th of May, 2024; published online: 24th of May, 2024.

**Açar sözlər:** *Ruhi Bağdadi, Fəzli Bağdadi, Molla Pənah Vaqif, Xəstə Qasım, dünyəvi məhəbbət, real gözəl*

## Giriş

Klassik Şərq ədəbiyyatının bir sahəsi olan orta əsrlər Azərbaycan ədəbiyyatının təsəvvüfi motivlərlə zənginliyi məlumdur. Məhəbbət mövzusunda yazılmış əksər şeirlərdə dünyəvi məhəbbətdən çox, ilahi eşqdən – Allaha, peyğəmbərə, imamlara və digər müqəddəslərə yetirilən məhəbbətdən bəhs edilirdi. İrfani motivlərə müraciət Füzuli yaradıcılığı ilə ən yüksək həddə çatdı. Dahi şair əsərlərini elə bir tərzdə yazırdı ki, onların əksəriyyətini oxuduqda ilk baxışdan real gözəl və dünyəvi eşqin tərənnümü kimi görünə bilər. Lakin bu sadəcə həmin şeirlərin üst qatıdır. O, dünyəvi eşqdən yalnız bir "üz qabığı" kimi istifadə edib təsəvvüf fəlsəfəsini, dərin ilahi eşqi təsvir edirdi. Füzuli ədəbi məktəbinin davamçıları da sələfləri kimi dünyəvi mövzulardan artıq irfani-təsəvvüfi mövzularda şeirlər qələmə alırdılar. Təbii ki, bu şairlər də Füzuli kimi zahirən dünyəvi, əslində isə ilahi eşqin tərənnümçüsü kimi çıxış edirdilər. Bu məktəbin ən qüdrətli davamçılarından olan Ruhi Bağdadinin yaradıcılığında da analoji halın şahidi oluruq. O da təsəvvüfi poeziya sahəsində güclü qələm sahiblərindəndir. Lakin bu şairlər heç də həmişə ilahi məhəbbəti və ya xəyali gözəli təsvir etməmiş, bəzi hallarda həyatda gördükləri real gözəllərin tərənnümünə də şeirlər həsr etmişlər. O cümlədən, Ruhi də, əsasən, ilahi məhəbbət mövzusunda yazsa, divanında real gözəli təsvir etdiyi məqamları da görmək mümkündür və biz bu məqalədə şairin dünyəvi eşqi ifadə şəklini çağdaş və xələfləri ilə müqayisəli araşdıracağıq.

## 1. Divan ədəbiyyatı və Ruhi şeirində dünyəvi motivlərə ümumi nəzər

Divan və təsəvvüf ədəbiyyatının görkəmli tədqiqatçısı Abdülbaki Gölpınarlı "Divan edebiyatı beyanındadır" adlı əsərində divan şairlərinin şeirlərinin gerçəklikdən, həyatilikdən tamamilə uzaq olduğunu, mühitə, ictimai quruluşdakı əyər-əskikliklərə, ümumun həyatına, reallığa əhəmiyyət vermədiyini qeyd edir [12, s.38]. Lakin divan şairlərinin yaradıcılığını araşdırdıqda görürük ki, divan ədəbiyyatı, əsasən, təsəvvüfi mövzular, simvolik məzmunlar üzərində qurulsa da, real həyatdan uzaq deyil. Divan ədəbiyyatının görkəmli tədqiqatçılarından olan İsgəndər Pala deyir ki, *"hər ədəbiyyat öz dövrünün güzgüsüdür. Şair və sənətkar fərqində olsa da, olmasa da, içində olduğu həyatın və mühitin təsirində qalır"* [16, s.53]. Divan şairlərinin bir çoxu ənənəvi mövzularla yanaşı, həyati məqamlara, əhalinin yaşam tərzinə, tarixi hadisələrə də şeirlərində münasibət bildirmişlər.

[*] *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail*: azerosmanli4@gmail.com

Təsəvvüf şairləri xalqın gündəlik həyatı, müxtəlif inancları, oyunlar və s. ilə əlaqədar ünsürləri divan şeirinə gətirir və onları təsəvvüf fəlsəfəsi ilə əlaqələndirirlər. Bu barədə prof. Səadət Şıxıyeva deyir: *"Bu zaman mücərrədləşən həyati həqiqət yeni və poetik bir təsəvvüfi dəyər qazanır"* [17, s. 250]. Heç bir sənətkarın yaşadığı sosial mühitlərin kənarında düşünülməsi mümkün olmayacağı kimi bu mühitlərin təsiri altında qalmadan sənət əsəri meydana gətirə biləcəyi də təsəvvür edilə bilməz [bax: 19].

Klassik Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Seyid İmadəddin Nəsiminin yaradıcılığında yuxarıda sadaladığımız məzmunları geniş vüsətdə görmək mümkündür. Məsələn, o, nərd, şahmat, çövkən kimi oyunları şeirinə gətirmiş, bu oyunların müxtəlif cəhətlərini təsəvvüfi anlamla bağlamışdır. Tədqiqatçi alim Səadət Şıxıyeva Nəsimi şeirində şahmat oyunu və onun ünsürlərinin işlənmə məqamları haqqında yazarkən qeyd edir ki, *"şair şahmatda güclü və geniş imkanlı fiqurlardan olmasına baxmayaraq, məqsədinə doğru "əyri" yollarla gedişinə görə ata mənfi münasibət bildirir"* [17, s. 250]. Lakin bir sıra şairlər bu cür ünsürlərdən istifadə edərkən həmişə onlara təsəvvüfi mənalar yükləməmiş, real həyatda ifadə etdiyi mənasını saxlamışlar.

Klassik ədəbiyyatda real həyatla əlaqədar motivlərdən biri də real gözəlin və dünyəvi məhəbbətin tərənnümüdür. *"Bəşəri eşq mövzusu şeir sahəsində əsrlər boyunca ən çox işlənən mövzulardandır"* [bax: 18]. Lakin bu cəhətdən divan ədəbiyyatını müəyyən mənada istisna etmək olar. Çünki divan ədəbiyyatında bu mövzu nə dərəcədə işlənsə də, işlənmə dərəcəsinə görə təsəvvüfi məhəbbət və ictimai-sosial mövzular səviyyəsinə çata bilməmişdir. Bununla belə, dünyəvi məhəbbət, real gözəlin tərənnümü divan ədəbiyyatı sahəsində ən çox maraq cəlb edən mövzulardandır.

Tədqiqat obyektimiz olan Ruhi Bağdadinin divanı da ənənəvi mövzu və məzmunlar, simvolik obrazlarla zəngin olsa da, realist ünsürlərdən də xali deyildir. Şairin gerçək həyatdan alınmış motivlər əsasında yazdığı şeirlərin mövzu dairələri müxtəlifdir. Bu şeirlərin bir qismində şairin ictimai-siyasi hadisələrə, cəmiyyətə, xalq həyatına münasibəti öz ifadəsini tapmışdır. Digər qisim şeirləri isə tərənnüm xarakterlidir. Belə ki, şair bu qəbildən olan nümunələrdə, əsasən, real həyatda gördüyü gözəlləri vəsf etmişdir.

Ruhinin ictimai motivli şeirləri mövzu dairəsinin genişliyi ilə diqqəti cəlb edir. Bu əsərlərdə dövrün Bağdad mühitinin ümumi mənzərəsini görmək mümkündür. Şairin *"Eyüdür"* [9, s.757], *"Nə dəmdədür"* [9, s.770] və *"Necədür"* [9, s. 837] rədifli qəsidələri bu baxımdan maraqlıdır. Sözügedən nümunələrdə Ruhi dövrünün Bağdad mühitində yaşayan Kəlami dədə, Məhəmməd Çələbi, Molla Əhməd, Feyzi, Fəzli, Tərzi, Həriri, Nami, Əhdi və b. şair və alimlərin adlarına rast gəlmək mümkündür.

Elizbar Cavelidze qeyd edir ki, *"Ruhi Bağdadinin şeirlərindən müəyyən edilir ki, şair və onun dostları Bağdadın qəhvəxanalarında tez-tez toplaşır, öz poetik əsərlərini oxuyur və öz yaradıcılıqlarını ictimai müzakirəyə çıxardırdılar"* [3, s. 58].

Sosial məsələlərə laqeyd qalmayan Ruhinin əsas şöhrət mənbəyi 17 bəndlik tərkkibbəndidir. Bu mənzumənin ədəbiyyat tariximizdə əhəmiyyətli bir yer tutmasının səbəbi sosial-ictimai problemlərin müvəffəqiyyətlə təsvir edilib həcv edilməsidir [11, s. 9]. Ruhi divanında "çərx" və "dəhr" anlayışları ictimai-sosial mövzuların mərkəzində dayanır. Burada "çərx" anlayışı daha çox sənətkarı kənardan əhatə edən aləm və cəmiyyət, "dəhr" isə sənətkarın öz həyatı ilə bağlıdır [15, s. 112].

Şairin real motivlər əsasında yazdığı şeirlər arasında tarixi mənzumələr və ya maddeyitarixlər də mühüm yer tutur. *"Ruhi Bağdadinin tarixi mənzumələri vəfatlar, toylar, vəzifəyə təyinlər, binaların inşası və təmiri, hədiyyələr, fəthlər kimi hadisələr üçün qələmə alınmışdır"* [14, s. 29].

## 2. Ruhi yaradıcılığında real gözəl və dünyəvi məhəbbət

Sosial-ictimai məsələlərlə yanaşı, Ruhinin yaradıcılığında real gözəlin təsviri və dünyəvi məhəbbət mövzusunu da müşahidə etmək mümkündür. Bu tipli şeirlər şairin yaradıcılığında geniş yer tutmasa da, azsaylı nümunələr sübut edir ki, Ruhi ilahi eşqin tərənnümü sahəsində nə qədər qüdrətli qələm sahibidirsə, dünyəvi məhəbbətdən bəhs edərkən də, o dərəcədə böyük ustalıq nümayiş etdirir. Türk poeziyası və Ruhi Bağdadi irsinin ən önəmli tədqiqatçılarından biri olan görkəmli gürcü alimi Elizbar Cavelidzeyə görə, Ruhi bir çox xüsusiyyətləri cəhətindən Füzuli üslubundan fərqli bir üslub ortaya qoymasa da, yara qarşı münasibətinin bəzi məqamlarını orijinal şəkildə həll edir [3, s.164].

Ruhi:

*Necə Bağdadi olub yürüməsinlər şüəra*
*Kim, olur xubləri biri-birindən ə'la,* [8, s. 179]

- mətləli qəzəlində doğma yurdu Bağdadın gözəllərini tərənnüm edir. Onları Osmanlı imperiyasının ən böyük şəhərlərindən olan İstanbulun gözəlləri ilə müqayisə edib üstünlüyü yurdunun gözəllərinə verir:

*Gərçi dilbərləri xoştəb'dir İstanbulun,*
*Bunların var lisanində vəli özgə səfa.* [8, s. 179]

Ruhinin bu beytini Molla Pənah Vaqifin məşhur *"Var"* rədifli müxəmməsindəki *"Yəni Tiflisin əcəb dilbəri-zibaları var"* [7, s. 195] misrası ilə müqayisə edə bilərik. Hər iki nümunədə müəlliflər təsvir etdikləri şəhərlərin gözəllərindən bəhs edib tərifləyirlər. Təbii ki, bu təriflər arasında müəyyən fərqli cəhətlər də mövcuddur. Ruhi Bağdadi doğma yurduna olan məhəbbəti, sevgisi səbəbindən onun gözəllərini də tərifləyir, İstanbul gözəllərindən üstün tutur. Vaqif isə səyahət etdiyi şəhərə və onun gözəllərinə duyduğu heyranlığı sənətkarcasına nəzmə çəkir. Misraların axıcılığı, ürəyəyatımlılığı, ifadə tərzindəki şuxluq hər iki şairin təsvirlərində nə dərəcədə səmimi olduğunu büruzə verir.

Ruhi Bağdadinin əksinə olaraq, yaxın dostu, təzkirəçi və şair Əhdi Bağdadi İstanbul şəhərinin gözəlliyindən bəhs edərək, oranın gözəllərinə də yer ayırır və onlardan əl çəkə bilməyəcəyini ifadə edir. Əhdi Bağdadi hisslərini aşağıdakı beytlə ifadə edir:

*Dilrübalərlə əcəb kəsrəti var hər yolun,*
*Keçəməz xublərindən könül İstanbulun.* [13, s. 83]

Baxmayaraq ki, hər iki şair ayrı-ayrı şəhərlərin gözəllərini vəsf edir, təsvirlər arasındakı oxşarlıq, deyim tərzi, şairlərin eyni mühitə aid olması bu nümunələr arasında bənzərlik axtarmağa əsas verir.

Ruhinin sözügedən şeirində aşiqin bir gözələ qarşı olan məhəbbət duyğularının ifadəsi öz əksini tapır. Lakin bu gözəl ənənəvi Şərq şeirindəki mücərrəd gözəl yox, Bağdadda yaşayan, şairin həmyerlisi və çağdaşı olan real gözəldir. Qəzəlin bir neçə beytində Ruhidən təqribən 200 il sonra yaşamış, yaradıcılığının əsas hissəsi real gözəllərin tərənnümü həsr olunmuş Molla Pənah Vaqifin misraları ilə səsləşən məqamların şahidi oluruq.

Ruhinin:

*Bir vilayət qanı Bağdad kimi kim, gözəli*
*Həm süxəndan ola, həm şux ola, həm əhli-vəfa* [8, s.179].

- beytindəki Bağdad gözəlinə xas olan xüsusiyyətlər Ruhinin həmyerlisi və müasiri, böyük Azərbaycan şairi Məhəmməd Füzulinin oğlu Fəzli Bağdadinin "Olmaq gərək", Tikmədaşlı Xəstə Qasım və Molla Pənah Vaqifin *"Ola"* rədifli qoşmalarında ifadəsini tapan kamil gözəl qadın anlayışı ilə müəyyən məqamlarda üst-üstə düşür. Fəzli deyir:

*Dünyada gözəllik dəvisin qılan*
*Degil, anə necə yar olmaq gərək?*
*Xülqü xoyi mələk, surəti insan,*
*Şəkər sözlü, şirin kar olmaq gərək.* [2, s. 379]

Fəzliyə görə, əsl gözəlin təbiəti mələk, görünüşü insan kimi olmalıdır, o gözəlin sözü də əməli də xoş olmalıdır.

Yuxarıdakı beytdə Ruhi təsvir etdiyi gözəlin xüsusiyyətlərini birbaşa onun yaşadığı yerlə əlaqələndirir. Doğrudur, burada ön planda olan məsələ elə Bağdad torpağının tərifi, gözəlliklərinin təsviridir. Şirin sözlü, şux, vəfalı gözəllər də bu torpağın əsas məziyyətlərindəndir. Biz bu halı digər klassik şairlərimizdə də müşahidə edə bilirik. Məhərrəm Qasımov Şah İsmayıl Xətainin real məhəbbəti tərənnüm edən şeirlərindən bəhs edərkən qeyd edir ki, *"Xətaidə gözəli təsvir zamanı coğrafi elementlərdən – məkani və irqi əlamətlərdən də vasitə kimi istifadə olunur"* [5, s.72].

Xəstə Qasım da gözəllik anlayışını aşağıdakı kimi ifadə edir:

*Bir gözəl sevəsən, boyu tamaşa,*
*Görən kimi könül ona bənd ola.*
*Gözəlliyi, gül camalı bir yana,*
*Dil-dodağı şəkər ola, qənd ola.* [10, s. 135]

Aşıq gözəlin zahiri gözəlliyinə də əhəmiyyət verir, vacibliyini bildirir. Lakin zahiri gözəllikdən daha artıq gözəlin dilinin şirin, danışığının xoş olmasının vacibliyini vurğulayır. *"Sevgilinin gözəlliyi vəsf edilərkən həm divan, həm də aşıq şeirində təqribən eyni üzvlər göz önünə gətirilmişdir"* [18, s. 24].

Vaqifin məşhur qoşmasında da gözəlin cilvəli, gülüb-oynayan, şux olmalı olduğu dilə gətirilir:

*Cilvələnə, sığal verə özünə,*
*İşi, gücü gülüb-oynamaq ola.* [7, s. 14]

Tanınmış alim Araz Dadaşzadə Fəzli və Vaqifin şeirlərini müqayisə edərkən Vaqifin Fəzlinin şeiri ilə tanış olub-olmamasının məlum olmadığını vurğulayır və bu məsələni o qədər də vacib hesab etmir. Əsas məsələ olaraq hər iki şairdəki hərarətin gücü və insan gözəlliyinə məftunluğun oxucunu heyran etməsidir [4, s. 103]. Eyni fikri Ruhi – Vaqif və Ruhi – Xəstə Qasım münasibəti üçün də söyləyə bilərik. Fəzli və Ruhi arasındakı tanışlıq, dostluq münasibətləri, eyni məkan, eyni ədəbi mühit faktorunu onların yaradıcılıqları arasındakı oxşarlığın əsas mənbəyi kimi göstərmək olar. Lakin Ruhinin adı çəkilən digər sənətkarlarla zaman və məkan cəhətdən uzaqlığı, həmçinin Füzuli ilə nisbətdə daha az tanınması, hətta demək olar ki, haqqında məlumatın olmaması Vaqif və Xəstə Qasımın onun yaradıcılığına bələd olmadığı ehtimalını gücləndirir. Ancaq burada bizi maraqlandıran əsas cəhət sözügedən sənətkarların bir-birini tanıması deyil, qələmə aldıqları əsərlərin bir-birinə ruhən nə dərəcədə yaxın olmasıdır. Bu yaxınlıq eyni xalqa məxsus ədəbiyyatın müxtəlif tərzlərdə yaranıb inkişaf edən, fərqli xüsusiyyətlər daşıyan qollarının köklərinə bağlılığını, eyni düşüncə tərzi, eyni mentalitetlə əlaqədar olduğunu sübut edir.

Göründüyü kimi, bəhsini etdiyimiz şeirlərdə hər bir şairin gözəl qadın haqqındakı təsəvvürləri bir-birinə olduqca yaxındır. Bu nümunələrdə vəsf olunan dünyəvi gözəllər eyni şəkildə təsvir və tərənnüm olunur. Bu ruh yaxınlığı onu sübut edir ki, klassik üslubda yazılan ədəbiyyatla sadə dildə yaranmış xalq şeiri üslubu heç də bir-birinə yad deyildir. Bu iki qol həmişə bir-biri ilə vəhdətdə olmuş, bir-birinə qarşılıqlı təsir etmişdir.

Ruhi Bağdadinin:

*İxtilatilə məhəbbət olur, amma bunlar*
*Hər nəzərdə dili-üşşaqi edərlər yəğma.* [8, s. 179]

- deyib təsvir etdiyi söhbəti (*"ixtilat"*) ilə aşiqlərin ürəyini yağmalayan gözəllər Vaqifin aşağıdakı bəndlə təsvir etdiyi və tərifədiyi Pərinin sələfləridir:

*İxtilatın şirin, sözün məzəli,*
*Ellər yaraşığı, ölkə gözəli,*
*Şəkər gülüşündən canlar təzəli,*
*Nə gözəl doğubsan anadan, Pəri!* [7, s. 41]

Göstərilən nümunələr arasında nə qədər yaxınlıq olsa da, ədəbiyyatın ayrı-ayrı qollarına mənsub olduğu üçün bir sıra xarakterik fərqləri də müşahidə etmək mümkündür. Vaqifin deyib-gülən, sözü-söhbəti və gülüşü ilə canlar təzələndirən Pərisindən fərqli olaraq, Ruhinin təsvir etdiyi Bağdad gözəlləri nə qədər şirin sözlü olsalar da, baxışları ilə aşiqlərin ürəyini tar-mar edirlər. Bu xüsusiyyət ənənəvi Şərq poeziyasında təsvir olunan zülmkar gözəlin Ruhi Bağdadi yaradıcılığındakı inikasıdır.

Haqqında danışdığımız qəzəlin son beytində Ruhi sevdiyinin təsvir etdiyi gözəllərdən biri olduğunu vurğulayır. Həmin gözəlin aşiqinə qarşı zülmkarlığını nəzərə çatdıran şair onun adını gizli saxlayır. Ruhi Bağdadi bu şəxsə qarşı hisslərini aşağıdakı kimi ifadə edir:

*Bəni nalan edən, ey Ruhi, bu məhrulərdən*
*Bir cəfakardır, adın demək olmaz əmma.* [8, s. 179]

Rəvan təb, coşqun məhəbbət hissi, sadə, şirin xalq dili ilə ifadə olunmuş bu misraları Molla Pənah Vaqifin *"Oynasın"* rədifli qoşması ilə müqayisə etmək olar. Həmin qoşmadan aşağıdakı misralara nəzər salaq:

*Adını demərəm, eldən ayıbdır,*
*Filankəsin qızı filan oynasın.* [7, s. 89]

Nümunələr arasındakı üslub, məzmun və ifadə yaxınlığı diqqəti cəlb edir. Eynilə Ruhi kimi Vaqif də təsvir etdiyi gözəlin adını saxlayır. Düzdür, Vaqif bir sıra şeirlərində konkret adlar çəksə də, nümunə gətirdiyimiz misralarda isə ad çəkməməyə daha çox üstünlük verir. Özünə yaxın olan, xüsusən, sevdiyi qadının adını gizli saxlamaq orta əsr müsəlman toplumunun nümayəndəsi olan kişilərə xas cəhətlərdən biridir. Ruhi və Vaqif də xalqın inancı ilə bağlı olan həmin tabunu poetik dillə ifadə etmişlər. Bu tipli ifadələrin şeirə gətirilməsinə həmin şeiri daha oxunaqlı edən mühüm cəhətlərdən göstərmək mümkündür.

Ümumiyyətlə, xalq poeziyası üslubunda yazan sənətkarlar klassik ədəbiyyatın təmsilçilərindən fərqli olaraq şeirlərində tez-tez müxtəlif qadınların adlarını çəkirlər. Buna misal kimi Qurbaninin "Pərim gəlsin" [6, s.39], "Pəri" [6, s.63], Molla Pənah Vaqifin

"Zeynəb" [7, s. 17], "Fatimə" [7, s. 31], "Pəri" [7, s. 41], Aşıq Ələsgərin "Müşgünaz" [1, s. 65], "Həcər" [1, s. 140] və s. şeirlərini göstərmək olar. Klassik ədəbiyyatda əsas etibarilə ilahi məhəbbət təsvir olunması, dünyəvi eşqin nümunələrinin sayca az olması səbəbilə bu hala bəzi istisnaları nəzərə almasaq, demək olar ki, rast gəlmək olmur.

**Nəticə**

Yuxarıda göstərdiyimiz nümunələr və müqayisələr bir daha sübut edir ki, divan ədəbiyyatı, klassik əruz vəznli poeziya heç də ancaq eynitipli təsvirlərdən ibarət deyildir, eləcə də divan şairləri sadəcə bir-birini təkrarlayıb gerçək həyatdan təcrid olunmuş şeirlər yazmamışlar. Poeziyada xəlqilik, gerçək həyatın təsviri, tərənnümü yalnız xalq poeziyasının, heca vəznli şeirin yazılı ədəbiyyatda yerini möhkəmləndirməsi ilə əlaqədar deyildir. Bu ənənənin əsası elə klassik şeirdə qoyulmuşdur. Bu cür nümunələri təkcə Ruhi Bağdadi yaradıcılığında deyil, Nizami Gəncəvi, Qazı Bürhanəddin, İmadəddin Nəsimi kimi söz ustalarının yaradıcılığında da görmək mümkündür.

## ƏDƏBİYYAT


1. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
2. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. II c., Bakı: Şərq-Qərb, 2005, 408 s.
3. Cavelidze E. Ruhi Bağdadi (Həyatı, dünyagörüşü, lirikası). Bakı: Elm və təhsil, 2018, 210 s.
4. Dadaşzadə A. XVIII əsr Azərbaycan lirikası (monoqrafiya). Məqalələr. Bakı: Təhsil, 2017, 424 s.
5. Qasımov M. Xətainin qəzəllərində real məhəbbətin tərənnümü // Şah İsmayıl Xətai (məqalələr toplusu). Bakı: Elm, 1988, s. 70-79
6. Qurbani. Əsərləri. Bakı: Şərq-Qərb, 2006, 232 s.
7. Molla Pənah Vaqif. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 269 s.
8. Musabəyli A. Bağdadda yaranan Azərbaycan ədəbiyyatı və Ruhi Bağdadi Divanı: əlyazma qaynaqları üzərində araşdırmalar, müqayisəli tranfoneliterasiyası. İki cilddə. I c., Bakı: Elm və təhsil, 2011, 482 s.
9. Musabəyli A. Bağdadda yaranan Azərbaycan ədəbiyyatı və Ruhi Bağdadi Divanı: əlyazma qaynaqları üzərində araşdırmalar, müqayisəli tranfoneliterasiyası. İki cilddə. II c., Bakı: Elm və təhsil, 2011, 482 s.
10. Pirsultanlı S.P. Tikmədaşlı Xəstə Qasımın ədəbi irsinin tədqiqi. Bakı: Azərnəşr, 2011, 256 s.
11. Buyruk E.İ. Bağdatlı Ruhi Divanı'nda Sosyal Hayat, Doktora Tezi, Konya, 2015, 405 s.
12. Gölpınarlı A. Divan Edebiyatı Beyanındadır. İstanbul: Marmara Kitabevi, 1945, 170 s.
13. Hosein A. Bağdatlı Divan Şairlerinin Şiirlerinde Osmanlı Coğrafyası, Doktora Tezi, Karabük, Mayıs, 2023.
14. Kuşçu V.A. Bağdatlı Ruhi'nin Tarih Manzumeleri, Doktora Tezi, Kırklareli, 2020, 171 s.
15. Mermer K. Bağdatlı Rûhî'de Hicvin Başka Bir Yüzü: Çarh ve Dehr // Turkish Studies International Periodical for the Languages, Literature and History of Turkish or Turkic, Volume 11/17 Fall, 2016, s.93-114.
16. Pala İ. Divan Edebiyatı (İlaveli Ikinci Basım). İstanbul: Ötüken, 1996, 160 s.
17. Şıhıyeva, S. Sosial Nitelikli Konuların Tasavvufi Yorumu: Nesimi Örneği // Yeni Türkiye. 2015, №76, s. 249-257.
18. https://dogankaya.com/fotograf/divan_ve_halk_siirinde_guzel_tasviri.pdf
19. https://turkoloji.cu.edu.tr/ESKI%20TURK%20%20EDEBIYATI/nejat_sefercioglu_divan_siiri_gercek_hayat.pdf

***Резюме***

***Азер Османлы***

***Воспевание земной красоты в диване Рухи Багдади (сравнительный анализ с Фазли, Молла Панах Вагифом, Хесте Гасымом)***

*Восточная классика и являющаяся её ветвью азербайджанская средневековая поэзия изрядно обогащены суфийскими мотивами. Наши выдающиеся поэты - представители суфийской литературы средневековья, такие как Насими, Хагиги, Кишвари, Гюльшани, Хатаи, Физули, Набати и др. воспевая любовь с помощью таких выражений, как «джанан», «йар», «дилбер», «сенем» и т.д. подразумевали, в основном, не земных красавиц, а Аллаха или пророка, имама, а также различных святых. Однако, порой в своих произведениях поэты обращались и к реальной, т.е. земной жизни. Таких мотивов хоть и немного, но все же они занимают особое место в классической литературе.*

*Реальные образы в классической поэзии так же неоднородны. Поэты в своих произведениях иногда описывают повседневную жизнь и быт народа, повествуют о неустойчивости бренного мира, иногда жалуются на изменчивость судьбы, или же восхваляют повстречавшихся им красавиц, пишут о своей любви к ним. Правда и эти мотивы частично смешиваются с суфийскими мотивами, хотя доля реализма превалирует. В стихотворениях, посвящённых земной тематике, восхваление красавиц и мирской любви занимает наименьшее место. Развитие упомянутого направления в азербайджанской литературе связано в основном с творчеством ашугов и широким распространением созданных ими литературных образов, которые встречаются в творчестве Молла Панах Вагифа, Хесте Гасыма, Гасым бек Закира, Ашук Алескера и других поэтов и ашуков. Однако вышеупомянутые мотивы, хоть и в небольшом количестве, можно встретить и в классической литературе средневековья, иначе говоря и в творчестве более ранних авторов.*

*В творчестве выдающегося поэта XVI века Рухи Багдади наряду с другими классиками, помимо суфийских мотивов и божественной любви иногда встречаются поэтические отражения земной красоты. Например, в Диване поэта есть мотивы перекликающиеся с творчеством Фазли Багдади, Молла Панах Вагифа и Хесте Гасыма. В данной статье проводится сравнительный анализ этих особенностей и определяются их общие черты.*



**Ключевые слова:** *Рухи Багдади, Фазли Багдади, Молла Панах Вагиф, Хесте Гасым, мирская любовь, земная красота*



***Summary***

***Azer Osmanlı***

***Description of the Real Beauty in Ruhi Baghdadi Diwan (Comparative Analysis with Fazli, Molla Panah Vagif and Khasta Gasim)***

Classical Eastern literature and its branch, Azerbaijani divan literature, is a literature rich in sufi motifs. When our classical poets wrote about love, they used "canan", "yar", "dilbar", "sanam", etc. when they say, they did not describe the real beauties they saw in life, but mainly God, sometimes prophets, imams and other saints. In Azerbaijani literature, prominent poets such as Nasimi, Haqiqi, Kishvari, Gulshani, Khatai, Fuzuli, and Nabati are the most famous representatives of Sufism literature. However, despite this, our classical poets did not always describe the divine love, but expressed their attitude to real life in their works. Although these motifs are used less than the motif of Sufi love, they occupy a special place in classical literature.

The real motives in Divan literature are multifaceted. Sometimes the poets bring the people's everyday life and daily life into poetry, sometimes they complain about the world's unfaithfulness, the apostasy of fate, and sometimes they praise the real beauties they see in life and express their love for them. It is true that these topics are also written mostly with Sufism motifs. But in the poems written on those topics, the share of reality is superior. A less frequently used theme in poems based on real motives is the theme of real, beautiful and worldly love. The development of the mentioned topic in Azerbaijani literature is related to the spread of love poetry and examples of written literature created under the influence of this poetry. In our literature, it is possible to observe the description of real beautiful and worldly love in the works of Molla Panah Vagif, Gasim bey Zakir, Khasta Gasim, Ashiq Alasgar and other poets and lovers. However,

even before these artists, the motif we are talking about can be seen in classical literature, in the style of divan poetry.

In the works of Ruhi Baghdadi, one of the prominent poets of the 16th century, as in other classics, we mostly witness Sufi motifs and glorification of divine love, but in some cases, he described the worldly beauty. In this respect, there are certain points in the poet's divan that resonate with the creativity of Fazli Baghdadi, Molla Panah Vagif, and Khasta Gasim. In this article, we examined those points in a comparative way and identified common features.

**Key words:** *Ruhi Baghdadi, Fazli Baghdadi, Molla Panah Vagif, Khasta Gasim, worldly love, real beauty*

Redaksiya heyətinin üzvü fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.